# Ali Məqamlı Rəhbər Qurban və Qədir-Xum bayramları münasibətilə bir qrup məhkumun əfvinə razılıq verdi - 13 /Oct/ 2014

Mübarək Qurban və Qədir-Xum bayramlarının gəlişi ilə əlaqədar olaraq, İslam İnqilabının Ali Məqamlı Rəhbəri Həzrət Ayətullah Xamenei Ümumi və İnqilab Məhkəmələri, Hərbi Tribunal və İqtisad Məhkəməsi tərəfindən mühakimə edilmiş 1256 məhkumun cəzasının əfvi, yaxud yüngülləşdirilməsi təklifini müsbət cavablandırmışdır.

Ali Məqamlı Rəhbərə məktubla müraciət etmiş Məhkəmə Hakimiyyətinin sədri Ayətullah Amoli Laricani Qurban və Qədir-Xum bayramlarının gəlişi ilə əlaqədar olaraq, Məhkəmə Hakimiyyətinin Əfv və Amnistiya Komissiyası tərəfindən zəruri şərtlərə cavab verdikləri müəyyən olunmuş 1256 nəfər məhkumun cəzasının əfv edilməsi, yaxud yüngülləşdirilməsini təklif etmiş, Həzrət Ayətullah Xamenei də onun təklifi ilə razı olduğunu bildirmişdir.

**Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir**